*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 232-238*

https://doi.org/10.62837/2026.7.232

**SƏIDƏ MEHDIYEVA**
**ADU**
**saida_mehdiyeva@mail.ru**

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ: NÖVLƏR, FUNKSİYALAR VƏ PEDAQOJİ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, diaqnostik qiymətləndirmə, tədris prosesi, şagird nailiyyətləri
***Keywords***: assessment, formative assessment, summative assessment, diagnostic assessment, teaching process, student achievement.
***Ключевые слова:*** оценивание, формирующее оценивание, суммативное оценивание, диагностическое оценивание, учебный процесс, успеваемость учащихся.

İngilis dili dərslərində şagirdlərin qiymətləndirilməsi tədrisin əsas vəzifələrindən biridir. Qiymətləndirmənin məqsədi şagirdlərin nə dərəcədə bilik əldə etdiyini müəyyənləşdirmək və onların akademik göstəricilərini dəyərləndirməkdir. Qiymətləndirmədən istifadə etməklə müəllimlər şagirdlərin nailiyyətlərini izləyə və onlara kömək edə bilirlər. Bu proses həmçinin şagirdlərə öz irəliləyişlərini görmək imkanı verir və onların motivasiyasını artırır, müəllimin fəaliyyətinə nəzarət edir və gələcək işin planlaşdırılmasına şərait yaradır, eyni zamanda valideynlərə, kollec və məktəb rəhbərliyinə məlumat verməyə imkan yaradır. Qiymətləndirmə təhsildə mühüm rol oynayır və tədris prosesində həlledici əhəmiyyət daşıyır. Bütün akademik mühitlərdə qiymətləndirmə öyrənmə prosesi ilə sıx bağlı hesab olunur. Bu, müəllimlərin və inzibati işçilərin şagirdlərin dil bacarıqları, onların uyğun səviyyələrə yerləşdirilməsi və akademik uğurları haqqında qərar verməsinə kömək edir.

Uyğun qiymətləndirmə strategiyalarının seçilməsi məktəb təhsilinin təcrübə əsasında davamlılığını təmin edən mühüm amillərdən biridir. Bununla belə, Davic-Conston qeyd edir ki, ənənəvi qiymətləndirmə modellərinin istifadəsi problemli ola bilər, çünki öyrənmə modellərini etibarlı şəkildə ölçmək çətindir, xüsusilə də bu alətlər tamamilə fərqli bir model üçün hazırlanmışdır. Bir çox ənənəvi metodlar yeni öyrənmə növlərini adekvat şəkildə nəzərə almır və ya ölçməyə imkan vermir. [1, 34]

Qiymətləndirmə və dəyərləndirmə ingilis dilinin tədrisi və öyrənilməsi prosesinin mühüm komponentləridir. Effektiv qiymətləndirmə proqramı olmadan şagirdlərin bilikləri mənimsəyib-mənimsəmədiyini, tədrisin effektiv olub-olmadığını və onların təhsil ehtiyaclarının ən yaxşı şəkildə necə qarşılanacağını müəyyən etmək mümkün deyil. Təhsil prosesində qiymətləndirmənin keyfiyyəti şagirdlərin akademik göstəriciləri ilə güclü və davamlı əlaqəyə malikdir. Araşdırmalar göstərir ki, müntəzəm monitorinq və geribildirim şagirdlərin öyrənməsini yaxşılaşdırmaq üçün vacibdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 232-238*

Nəyin qiymətləndirildiyi, necə qiymətləndirildiyi və nəticələrin necə təqdim edildiyi mühüm əhəmiyyət daşıyır. Nəticələr şagirdlərə və digər maraqlı tərəflərə nəyin həqiqətən dəyərli olduğu barədə aydın mesaj verir — nəyi öyrənmək, onu necə öyrənmək, keyfiyyət baxımından hansı elementlərin daha vacib olduğu və şagirdlərdən gözlənilən nailiyyət səviyyəsi.

Şagirdlərin savadlılıq ehtiyaclarının qiymətləndirilməsi tədris proqramının mühüm hissəsidir. Şagirdlər "sadəcə ingilis dilini öyrənmək" istədiklərini desələr də, onların çox vaxt çox konkret məqsəd və öyrənmə ehtiyacları olur; məsələn, övladlarına kitab oxuya bilmək, övladlarının müəllimləri ilə danışa bilmək və ya iş tapmaq kimi. Əgər onların ehtiyacları qarşılanmazsa, narazılıqlarını bildirmək əvəzinə, təhsili tərk etmə ehtimalları daha yüksək olur. Buna görə də şagirdlərin ehtiyac və məqsədlərini müəyyən etmək üçün qeyri-formal özünüqiymətləndirmə vasitələrindən istifadə etmək vacibdir. Eyni zamanda, şagirdlərin nailiyyətlərini qiymətləndirmək üçün formal qiymətləndirmə vasitələrindən istifadə də zəruridir. Ehtiyacların və qiymətləndirmənin nəticələri şagirdlərin ehtiyaclarını nəzərə alan tədris proqramlarının və sinif praktikalarının hazırlanması üçün əsas kimi istifadə oluna bilər. Bu, həm şagirdlərin nə bildiyini və nə edə bildiyini, həm də nə öyrənmək və nəyi bacarmaq istədiklərini əhatə edir. Şagirdlərin öz öyrənmə proseslərini izləmək və qarşıya qoyduqları məqsədlərə doğru irəliləyişlərini qiymətləndirmək üçün də imkanlara ehtiyacları vardır. [4, 224-225]

Qiymətləndirmə hər hansı bir şeyin miqdarını, dəyərini, keyfiyyətini və ya əhəmiyyətini müəyyənləşdirmək və ya bu barədə qərar vermək fəaliyyətidir. O'Farrell izah edir ki, qiymətləndirmə ölçülmüş nəticələrdən əldə edilən məlumatların sistematik və davamlı şəkildə toplanması, təhlili və istifadəsi vasitəsilə şagirdlərin öyrənmə prosesinin, əldə etdikləri biliklərin, inkişaf etdirdikləri anlayışların, bacarıq və səriştələrin yaxşılaşdırılmasına yönəlmiş bir prosesdir. [5, 23] "Test" və "qiymətləndirmə" çox vaxt eyni mənada işlədilsə də, qiymətləndirmə şagirdlərin nailiyyətlərini ölçmək üçün istifadə olunan bütün vasitələri əhatə edən ümumi anlayışdır, buna görə də qiymətləndirmə və test anlayışları bir-birindən fərqləndirilməlidir. Qiymətləndirmə təhsil prosesində həlledici rol oynayır, tələbələrin iş yükünün böyük hissəsini müəyyən edir, onların öyrənmə yanaşmasına təsir göstərir və kursun hansı aspektlərinin daha vacib hesab edildiyini göstərir. [6, 2]

Qiymətləndirmə müəllimlərin işinin ən mürəkkəb və eyni zamanda ən vacib hissələrindən biridir. Frank hesab edir ki, "qiymətləndirmə müəllimlər üçün şagirdləri öyrənmə yolunda istiqamətləndirməyə kömək edən bir vasitə kimi qəbul edilməlidir". [3, 32] Heç bir qiymətləndirmə proseduru bütün şagirdlərin və bütün situasiyaların ehtiyaclarını tam şəkildə ödəyə bilmədiyi üçün müəllimlər şagirdlərin inkişafını izləmək və istifadə olunan metodların və materialların effektivliyini qiymətləndirmək üçün müxtəlif vasitələrdən istifadə etməlidirlər.

Ümumilikdə qiymətləndirmənin bir neçə növü vardır:

Qeyri-formal qiymətləndirmə - Müəllimlərin qeyri-formal qiymətləndirməsinin böyük bir hissəsi şagirdlərin nailiyyətlərini üzə çıxarmaq üçün nəzərdə tutulmuş sinif tapşırıqlarına daxil edilir və nəticələr qeyd olunmadan, şagirdlərin kompetensiyası haqqında sabit qərarlar verilmədən aparılır. Qeyri-formal qiymətləndirmə müəllimin şagirdləri hər hansı rubrika və ya ölçü vahidi əsasında ölçmədən qiymətləndirdiyi intuitiv bir metoddur. Bu qiymətləndirmə forması müəllimlərə tədris dövrünün müxtəlif mərhələlərində şagirdlərin irəliləyişini müşahidə etməyə imkan verir. Qeyri-formal qiymətləndirmə sinifdə müxtəlif formalarda həyata keçirilir. Ən geniş yayılmış növlərə viktorinalar, yazılı nümunələr və layihə əsaslı tapşırıqlar daxildir. Qeyri-formal qiymətləndirmə zamanı testlər sinifdə iştirak və fəallığı artırmaq məqsədilə istifadə olunur. Məsələn, müəllim şagirdləri qrup viktorinalarında və ya müəyyən mövzu üzrə qısa təqdimatlarda iştirak etməyə dəvət edə bilər. O, həmçinin dərsin sonunda qapalı suallardan ibarət "çıxış sorğusu" (exit ticket) tətbiq edə bilər. Bu sorğu vasitəsilə şagirdlər dərsdə qarşılaşdıqları çətinlikləri və öyrəndikləri ən vacib məqamları qeyd edirlər. Müəllim şagirdlərə elmi layihə hazırlamağı və layihə ideyaları haqqında qısa izahat yazmağı da tapşıra bilər. Qeyri-formal qiymətləndirmə standart qiymətləndirmə meyarları olmadan şagirdlərin nailiyyətini ölçür. Müəllim müxtəlif metodlardan istifadə edərək şagirdlərin biliklərini nümayiş etdirməsinə imkan yaradır və eyni zamanda öyrənmə boşluqları barədə geribildirim verir. "Exit ticket", müşahidə və şifahi təqdimatlar qeyri-formal qiymətləndirməyə nümunədir. Müəllim belə hallarda "Əla", "Çox yaxşı iş", "Mükəmməl", "Davam et" kimi ifadələrdən istifadə edə bilər.

Formal qiymətləndirmə - Formal qiymətləndirmə şagirdlərin dəyərləndirilməsi üçün müəllimlərin istifadə etdiyi bir sıra məlumatlara əsaslanan metodları əhatə edir. Bu qiymətləndirmə əvvəlcədən planlaşdırılmış, bilik və bacarıqları ölçmək üçün xüsusi hazırlanmış tapşırıqlardan ibarətdir. O, müəllim və şagirdlərə nailiyyətlərin səviyyəsini müəyyən etməyə imkan verən sistematik və planlı yanaşmadır. Formal qiymətləndirmə şagirdin bilik səviyyəsini müəyyən etmək üçün qiymət sistemindən istifadə edən metoddur. Adətən bütün şagirdlər eyni suallara eyni şəraitdə cavab verirlər və müəllim əvvəlcədən müəyyən edilmiş meyarlara əsasən qiymətləndirmə aparır. Kontekstdən asılı olaraq formal qiymətləndirmə normaya və ya meyara əsaslana bilər. Məsələn, şagirdin nəticəsinin sinif ortalaması ilə müqayisə edilməsi lazım olduqda normaya əsaslanan qiymətləndirmə istifadə olunur. Formal qiymətləndirməyə testlər, viktorinalar, sorğular və anketlər daxildir.

Summativ (yekun) qiymətləndirmə - Summativ qiymətləndirmənin məqsədi tədris vahidinin sonunda şagirdin öyrənmə nəticələrini müəyyən standart və ya meyarla müqayisə edərək qiymətləndirməkdir. Bu qiymətləndirmələr adətən yüksək əhəmiyyətli olur və yekun bal üçün istifadə edilir. Yekun qiymətləndirmə tədris prosesinin sonunda aparılan və şagirdin nailiyyətlərini müəyyən edən tapşırıqlardır. O, əsasən qiymət vermək və nəticələri müəyyən etmək üçün istifadə olunur. Bu qiymət-

ləndirmə şagirdlərin nəyi əldə etdiyini göstərir və onların səviyyəsini müəyyənləşdirir. Summativ qiymətləndirməyə aşağıdakılar daxildir:

1. End-of-unit or -chapter tests (Bölmə və ya fəsil sonu testləri)
2. Final projects or portfolios (Yekun layihələr və ya portfoliolar)
3. Achievement tests (Nailiyyət testləri)
4. Standardized tests (Standartlaşdırılmış testlər) [8]

Formativ qiymətləndirmə - Formativ qiymətləndirmə şagirdlərin inkişafını izləmək məqsədilə dərs, bölmə və ya semestr ərzində mütəmadi aparılır. Bu qiymətləndirmə həm şagirdlərin öyrənmə prosesini, həm də müəllimin tədris metodlarını təkmilləşdirməyə xidmət edir. Müəllimlər formativ qiymətləndirmədən tez-tez istifadə edirlər, çünki bu, şagirdlərin fərdi ehtiyaclarını müəyyən etməyə və davamlı geribildirim mühiti yaratmağa kömək edir. Məsələn, bir dəqiqəlik yazı tapşırığı şagirdlərin mövzunu nə dərəcədə anladığını göstərir. Formativ qiymətləndirmə öyrənməni dəstəkləyən qiymətləndirmə növüdür və prosesə yönəlib. Bu qiymətləndirmə şagirdlərə geribildirim vermək və onların inkişaf sahələrini müəyyən etmək məqsədi daşıyır. Nümunələrə aşağıdakılar daxildir:

1. In-lesson polls (Dərs zamanı sorğular)
2. Partner quizzes (Cütlük viktorinaları)
3. Self-evaluations (Özünüqiymətləndirmə)
4. Ed-tech games (Təhsil texnologiyası oyunları)
5. One-minute papers (Bir dəqiqəlik yazılar)
6. Visuals (e.g., diagrams, charts or maps) to demonstrate learning (Diaqram, qrafik və xəritələr vasitəsilə öyrənmənin nümayişi)

Diaqnostik qiymətləndirmə - Diaqnostik qiymətləndirmə effektiv tədrisin qurulmasında mühüm rol oynayır. O, dərsdən əvvəl şagirdin bilik və bacarıq səviyyəsini müəyyən etmək üçün istifadə olunur. Bu qiymətləndirmə müəllimə dərs planını daha effektiv hazırlamağa imkan verir. Diaqnostik qiymətləndirmənin məqsədi başlanğıc səviyyəni müəyyənləşdirmək, güclü və zəif tərəfləri aşkar etmək və tədrisi fərdiləşdirməkdir. Nümunələrə qısa müşahidələr, yoxlama siyahıları və oxu inventarları daxildir. Diaqnostik qiymətləndirmənin xüsusiyyətləri:

1. Yeni dərsdən əvvəl aparılır
2. Başlanğıc səviyyəni müəyyən edir
3. Bildikləri və bilmədikləri sahələri üzə çıxarır
4. Tədrisin fərdiləşdirilməsinə kömək edir
5. Aşağı riskli qiymətləndirmədir [7]

İngilis dili dərslərində şagirdlərin qiymətləndirilməsi tədris prosesinin ayrılmaz və çoxşaxəli komponentidir. Qiymətləndirmə yalnız şagirdlərin bilik və bacarıqlarını ölçmək üçün deyil, həm də onların inkişafını izləmək, tədrisin effektivliyini müəyyənləşdirmək və öyrənmə prosesini daha məqsədyönlü şəkildə təşkil etmək üçün mühüm vasitədir. Aparılan təhlillər göstərir ki, qiymətləndirmə prosesi yalnız

nəticəyə yönəlməməli, eyni zamanda öyrənmə prosesini də dəstəkləməlidir. Beləliklə, effektiv qiymətləndirmə sistemi tədrisin keyfiyyətinin yüksəldilməsində, şagird nailiyyətlərinin artırılmasında və ümumilikdə təhsil prosesinin inkişafında mühüm rol oynayır. Buna görə də müəllimlər müxtəlif qiymətləndirmə üsullarından məqsədyönlü şəkildə istifadə etməli və onları tədris məqsədlərinə uyğunlaşdırmalıdırlar.

## ƏDƏBIYYAT

1.Davidge-Johnston, N. L. Conceptions of curriculum in co-operative education: A framework for analysis of the co-op preparatory curriculum (Doctoral dissertation, Faculty of Education-Simon Fraser University), 2007.
2.Desmizar M. Teachers’ Assessment Types in English Classroom, 2019
3.Frank, J. The Roles of Assessment in Language Teaching. Retrieved from: http://files.eric.ed.gov/,2012.
4.Meidasari V. E. The Assessment and Evaluation in Teaching English as a Foreign Language Indonesian EFL Journal, Vol. 1(2) July 2015
5.O’Farrel, C. Enhancing Student Learning through Assessment. Dublin, 2002.
6.Rust, C. Purposes and Principles of Assessment. Retrieved from: https://www.brookes.ac.uk/services/.../p_p_assessment.pdf, 2002.
7. https://study.com/learn/lesson/diagnostic-assessment-examples.htm
8.https://www.prodigygame.com/in-en/blog/summative-assessment/

**SƏIDƏ MEHDIYEVA**

## İNGILIS DILI DƏRSLƏRINDƏ ŞAGIRDLƏRIN QIYMƏTLƏNDIRILMƏSI: NÖVLƏR, FUNKSIYALAR VƏ PEDAQOJI ƏHƏMIYYƏTI

**XÜLASƏ**

Məqalə ingilis dili dərslərində şagirdlərin qiymətləndirilməsi məsələsini araşdırır. Qiymətləndirmə tədris prosesinin əsas komponentlərindən biridir. Onun əsas məqsədi şagirdlərin bilik və bacarıqlarını müəyyən etməkdir. Eyni zamanda qiymətləndirmə tədrisin effektivliyini ölçməyə xidmət edir. Müəllimlər qiymətləndirmə vasitəsilə şagirdlərin inkişafını izləyə bilirlər. Bu proses şagirdlərin motivasiyasını artırır və onların öz irəliləyişlərini görməsinə imkan yaradır. Qiymətləndirmə valideynlər və təhsil rəhbərliyi üçün də məlumat mənbəyidir. Məqalədə qiymətləndirmənin formal və qeyri-formal növləri izah olunur, qeyri-formal qiymətləndirmənin gündəlik sinif fəaliyyətlərinə əsaslandığı, formal qiymətləndirmənin isə planlaşdırılmış və standartlaşdırılmış üsullarla apardığı qeyd edilir. Müəllif eyni zamanda formativ qiymətləndirmənin öyrənmə prosesini dəstəklədiyini, summativ qiymətləndirmənin tədris bölməsinin sonunda nəticəni

ölçdüyünü, diaqnostik qiymətləndirmənin isə şagirdlərin ilkin bilik səviyyəsini müəyyənləşdirdiyini vurğulayır. Müəllif qey edir ki, müxtəlif qiymətləndirmə növləri tədrisin müxtəlif mərhələlərində istifadə olunur və qiymətləndirmə həm öyrətmə, həm də öyrənmə prosesinə təsir göstərir. Müəllifin fikrincə, davamlı qiymətləndirmə şagird nailiyyətlərini artırır və tədrisin keyfiyyətini yüksəldir. Məqalə qiymətləndirmənin təhsildə həlledici rolunu vurğulayır.

**SAIDA MEHDIYEVA**

**ASSESSMENT OF STUDENTS IN ENGLISH LANGUAGE LESSONS: TYPES, FUNCTIONS, AND PEDAGOGICAL SIGNIFICANCE**

**SUMMARY**

The article examines the issue of assessing students in English language lessons. Assessment is one of the main components of the teaching process. Its main purpose is to determine students' knowledge and skills. At the same time, assessment serves to measure the effectiveness of teaching. Teachers can monitor students' progress through assessment. This process increases students' motivation and allows them to see their own progress. Assessment is also a source of information for parents and educational authorities. The article explains formal and informal types of assessment, noting that informal assessment is based on everyday classroom activities, while formal assessment is carried out through planned and standardized methods. The author also emphasizes that formative assessment supports the learning process, summative assessment measures the final result at the end of a unit, and diagnostic assessment determines students' initial level of knowledge. The author notes that different types of assessment are used at different stages of teaching and that assessment influences both teaching and learning processes. In the author's opinion, continuous assessment increases student achievement and improves the quality of teaching. The article highlights the crucial role of assessment in education.

**САИДА МЕХТИЕВА**

**ОЦЕНИВАНИЕ УЧАЩИХСЯ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА: ВИДЫ, ФУНКЦИИ И ПЕДАГОГИЧЕСКАЯ ЗНАЧИМОСТЬ**

**РЕЗЮМЕ**

Статья рассматривает вопрос оценивания учащихся на уроках английского языка. Оценивание является одним из основных компонентов учебного процесса. Его главная цель заключается в определении знаний и умений учащихся. Одновременно оценивание служит для измерения эффективности обучения. С помощью оценивания учителя могут отслеживать прогресс учащихся. Этот процесс повышает мотивацию учащихся и позволяет им видеть собственный прогресс. Оценивание также является источником информации для родителей и органов управления образованием. В статье

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 232-238*

объясняются формальные и неформальные виды оценивания, при этом отмечается, что неформальное оценивание основано на повседневной деятельности в классе, а формальное осуществляется с помощью планируемых и стандартизированных методов. Автор также подчеркивает, что формирующее оценивание поддерживает процесс обучения, суммативное оценивание измеряет конечный результат в конце раздела, а диагностическое оценивание определяет начальный уровень знаний учащихся. Автор отмечает, что различные виды оценивания используются на разных этапах обучения и что оценивание влияет как на процесс преподавания, так и на процесс обучения. По мнению автора, непрерывное оценивание повышает успеваемость учащихся и улучшает качество преподавания. В статье подчеркивается ключевая роль оценивания в образовании.

**Rəyçi: Fil.f.d. F. Mahmudova**